# Azərbaycanın qlobal təşəbbüsləri dünyada yüksək dəyərləndirilir



Prezident İlham Əliyev çıxışında BMT-nin pandemiya ilə mübarizədə oynadığı rolu yüksək qiymətləndirərək, adıçəkilən qurumun qlobal miqyasda yayılan dəhşətli xəstəliyin ötən müddətdə nəzarətdə saxlanılması və yayılmasının qarşısının alınması, habelə dövlətlərə bu istiqamətdə dəstək verilməsi üzrə səylərin əlaqələndirilməsində səmərəli fəaliyyətini vurğulayıb. Eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatının sözügedən istiqamətdə həyata keçirdiyi tədbirlərin önəmini də xatırladıb.

***BMT Baş Assambleyasının sədri tərəfindən "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda fevralın 25-də təşkil olunan yüksək səviyyəli tematik müzakirələrdə Qoşulmama Hərəkatına üzv dövlətlər adından videoformatda çıxış edən Prezident İlham Əliyev adı çəkilən nüfuzlu beynəlxalq təşkilatın rəhbəri Abdulla Şahidin belə bir toplantı keçirilməsi təşəbbüsünü dəyərləndirdiyini vurğulayıb. Ölkə rəhbəri, eyni zamanda, mühüm önəm daşıyan bu tədbirin dünyada COVID-19 əleyhinə keyfiyyətli, təhlükəsiz, effektiv və məqbul qiymətə olan peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların gerçəkləşdirilməsi ilə bağlı problemlərin həllə də aradan qalxmadığı bir vaxta təsadüf etdiyini diqqətə çatdırıb.***

Dövlətimizin başçısı nitqində pandemiyanın yayıldığı dövrdən Qoşulmama Hərəkatının multilateralizm, əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər etdiyini, xəstəliklə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürdüyünü xatırladaraq, deyib: "2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş Xüsusi Sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür.

COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyət qlobal yanaşma tələb edir. Lakin az və orta gəlirli ölkələrdə peyvəndlərin tədarükünün aşağı səviyyədə olması bu baxımdan həllə də çox işlərin görülməli olduğunu göstərir".

Yeri gəlmişkən, burada bir məqamı da xatırlatmaq istərdik. Prezident İlham Əliyevin Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində TASS Agentliyində bu ölkənin aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşü zamanı bu tədbirdə iştirak edən Mehriban xanım Əliyeva Azərbaycanın COVID-19-la necə mübarizə apardığı ilə bağlı suala cavabında pandemiyanın yayıldığı ilk dövrdən indiyədək olan müddətdə bu sahədə görülən işlərdən ətraflı danışıb. Birinci vitse-prezident hazırda Azərbaycanda son dalğanın azalmaqda olduğunu vurğulayaraq, ölkəmizin xəstəliklə mübarizədə əldə etdiyi təcrübə barədə ətraflı məlumat verib: "İki ildən bir qədər artıq müddət keçəndən sonra hazırda bizdə müəyyən təcrübə var və mən onu bölüşə bilərəm. Bütün bunlar başlayanda, 2020-ci ilin fevral-mart ayları idi. Yəqin ki, hamınız xatırlayırsınız, müxtəlif versiyalar var idi, kimsə inanırdı, kimsə dərk edirdi, kimsə anlamırdı, inkaretmə mövcud idi. Fevral ayının sonunda biz aydın şəkildə dərk edirdik ki, nəyisə həqiqətən də çox ciddi hadisə baş verir və bu, qeyri-ordinar, təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Mən hesab edirəm ki, sonrakı işin uğurlu həyata keçirilməsinin başlıca səbəblərindən biri yəqin ki, çox peşəkar qərargahın, komandanın tez bir zamanda yaradılmasına nail olmağımızdır. Üstəlik, aydın idi ki, burada yalnız tibb işçiləri ilə kifayətlənmək olmaz, diapazon tamamilə genişdir və hökumət üzvləri, ekspertlər, gənc alimlər, xüsusilə riyaziyyatçılardan ibarət qrup toplandı. Çünki artıq o vaxt aydın idi ki, hesablamaq, proqnozlaşdırmaq lazım olacaq...".

Mehriban xanım Əliyevanın suala cavabında bildirdiyi kimi, o dövrdə xəstəliklə bağlı vəziyyət kəskinləşməmiş operativ qərarlar qəbul edildi. Güclü, ciddi karantin rejimi tətbiq olundu. Bununla yanaşı, qısa müddətdə daha bir vacib tədbir də görüldü-xaricdən 12 modul tipli xəstəxana alınaraq ölkəyə gətirildi. Təbii ki, bu zaman zəruri tibbi avadanlıq və dərmanlar alınması məsələsi də diqqətdə saxlanıldı. Pandemiyanın hökm sürdüyü birinci ilin sonuna, hətta ortalarına doğru vaksinasiya qarşıya mühüm vəzifə kimi qoyuldu. Azərbaycanda bu çox önəmli prosesə 2021-ci il yanvarın 18-də başlandı. Qısa vaxt ərzində ölkəyə əvvəlcə Çin, daha sonra isə Rusiya vaksinləri gətirildi. COVAX layihəsi xətti ilə Avropa vaksinləri də alındı. Təbii ki, vaksinasiyanın könüllü olacağı qərarına gəlindi və eyni zamanda, əhalinin bu prosesə kütləvi qoşulmasının əhəmiyyəti barədə təbliğat işi uğurla aparıldı. Əlbəttə, bu məsələdə ictimaiyyətin, hər bir sakinin Azərbaycan Prezidentinə etimadı öz rolunu oynadı.

Mehriban xanım Əliyeva yuxarıda bəhs edilən suala cavabında bu barədə deyib: "COVID ilə bağlı vəziyyətdə bu etimadın nə dərəcədə vacib olması bir daha təsdiqləndi, ona görə ki, Prezidentdən eşidilənlər birmənalı həqiqət kimi qəbul edilirdi. Əlbəttə, skeptiklər, skeptik əhval-ruhiyyəli insanlar vardı, az sayda vaksin əleyhdarları var. Lakin bütövlükdə biz ciddi ziddiyyətlərdən və ya iğtişaşlardan qaça bildik. Bizdə insanlar vaksin vurdurmağa getdilər və yetərincə intizamlı şəkildə vaksinləndilər. Bu günə qədər bizdə yaşı 18-dən yuxarı olan insanların təqribən 70 faizi iki doza vaksin alıb. Ona görə ki, bizdə əsasən yaşı 18-dən yuxarı olan insanlar vaksinlənir. Uşaqlar üçün vaksinləmə yalnız valideynlərin qərarı ilə həyata keçirilir, məcburi vaksinləmə yoxdur...".

Yeri gəlmişkən, xatırladaq ki, respublikamızda COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün cari ilin dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb.

Onu da deyək ki, pandemiyanın yayıldığı ilk vaxtlardan etibarən Prezident İlham Əliyev beynəlxalq səviyyədə COVID-19 pandemiyasına, peyvənd millətçiliyinə qarşı qlobal mübarizə təşəbbüsləri ilə çıxış etdi. Ötən il sentyabrın 24-də BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində video müraciət vasitəsilə dövlətimizin başçısı bir daha dünyada mövcud olan peyvənd millətçiliyini qınayaraq, Azərbaycan tərəfindən, eləcə də Qoşulmama Hərəkatı adından peyvəndlərə universal çıxışın reallaşdırılması ilə bağlı BMT Baş Assambleyasında da qətnamənin irəli sürüləcəyini bildirdi.

Həmin il noyabrın 18-də BMT Baş Assambleyasının 3-cü komitəsində (insan hüquqları və humanitar) sözügedən qətnamə layihəsi müzakirə olundu və səsvermə ilə qəbul edildi, dekabr ayında isə BMT Baş Assambleyasının plenar sessiyasında öz təsdiqini tapdı.

Bu, Azərbaycanın Qoşulmama Hərəkatı sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin birləşdirilməsi sahəsində qlobal liderliyini uğurla davam etdirdiyini göstərdi. Bu, eyni zamanda, dünya ölkələrinin əksəriyyətinin özünə qapandığı dövrdə Azərbaycanın pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən biri olmasının təsdiqi kimi diqqət çəkdi.

Bu məqamda onu da qeyd edək ki, həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardım göstərib. Bununla yanaşı, respublikamız 5 ölkəyə peyvənd ianəsini gerçəkləşdirib və gələcəkdə də bu işin davam etdiriləcəyi nəzərdə tutulub.

Hazırda Azərbaycan Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesini həyata keçirir.

Beləliklə, dövlətimizin başçısının təşəbbüsü ilə reallaşan Qoşulmama Hərəkatının 2020-ci ilin may ayında Zirvə toplantısı, dekabr ayında 150-dən artıq dövlətin dəstəyi ilə gerçəkləşən BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası, Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması ölkəmizin sədrliyi dövründə bu qurumun qlobal çağırışlarla bağlı mübarizəyə verdiyi töhfə kimi beynəlxalq miqyasda yüksək dəyərləndirildi.

BMT Baş Assambleyasının sədrinin "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda keçirilən yüksək səviyyəli tematik müzakirələrdə Prezident İlham Əliyev COVID-19 pandemiyası kimi qlobal fövqəladə vəziyyətin qlobal yanaşma tələb etdiyini bildirib. Dövlətimizn başçısı buna baxmayaraq, az və orta gəlirli ölkələrdə peyvəndlərin tədarükünün aşağı səviyyədə olması səbəbi ilə bağlı bu istiqamətdə müəyyən tədbirlərin görülməsi zəruriliyini də diqqətə çatdırıb. Dövlətimizin başçısı bu məsələnin aktuallığını isə belə əsaslandırıb: "COVID-19 peyvəndlərinin bölgüsü baxımından inkişaf etməkdə olan ölkələrlə inkişaf etmiş ölkələr arasında qeyri-bərabərlik beynəlxalq ictimaiyyətin qısa zamanda pandemiyanın tamamilə aradan qaldırılmasına nail olmasının qarşısını alır. Bu, həm də Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin reallaşdırılmasına mane olur".

Ölkə rəhbəri nitqində diqqətə çatdırdığı kimi, səhiyyə sisteminin davamlı fəaliyyətinin təmin edilməsi və pandemiya ilə mübarizədə səmərəli addımların atılması üçün bu sahədə xidmətlərin bütün müvafiq aspektlərinin gücləndirilməsi vacibdir. Bu məsələdə müxtəlif layihələrin gerçəkləşdirilməsi ilə bərabər, səhiyyənin universal əlçatanlığı məqsədilə fasiləsiz peyvəndlənmə proqramlarının davam etdirilməsi də mühüm önəm daşıyır.

Prezident İlham Əliyev peyvəndlərini ianə edən ölkələrin səylərini, vaksinlərin məqbul qiymətə, bərabər, universal, eyni zamanda, əlçatanlığın təmin olunmasına səy göstərən COVAX Mexanizmi, COVAX Öncədən Bazar Öhdəliyi, COVAX Öncədən Bazar Öhdəliyi Forumu və digər aidiyyəti konstruktiv təşəbbüsləri yüksək qiymətləndirdiyini bildirib. Ölkə rəhbəri bununla yanaşı, bütün ölkələrin, beynəlxalq təşkilatların, həmçinin aidiyyəti tərəfdaşların milli və regional hüquqi çərçivəyə uyğun peyvənd istehsalı, paylanılması, habelə ədalətli qiymət qoyulması məsələlərində şəffaflıqla bağlı öhdəlik götürmələrinin vacibliyini də diqqətə çatdırıb. Dövlətimizin başçısı bu məsələnin həllinə mane ola biləcək möhtəkirliyin, lazımsız ixrac nəzarətinin və lüzumsuz artıq tədarükün qarşısının alınması ilə bağlı ölkələr tərəfindən təcili addımların atılmasının zəruriliyini də vurğulayıb.

Ölkə rəhbəri çıxışının sonunda Azərbaycanın post-COVID-19 dövrü üçün fikir mübadiləsinin aparılması və Hərəkatın mövqeyinin formalaşdırılması məqsədilə Qoşulmama Hərəkatına üzv dövlətlərin növbəti yüksək səviyyəli iclasının keçirilməsi üçün hazırlıq işləri görüldüyünü də xatırladıb.

**Vaqif BAYRAMOV, "Xalq qəzeti"**